

İlqar MÜZƏFFƏROĞLU,
AJB-nin üzvü

# 52 saylı boğça

## 88 yaşlı yazıçı Qərib Mehdinin "Ey, adam, səninləyəm" adlı kitabının yazılması münasibətilə



***Yata bilmirdim. Sanki yatağıma qor dolmuşdu. Yataqda çox cövlan etdim. Hiss etdim ki, yenidən yuxuya gedə bilməyəcəyəm. Başımı qaldırıb divardan asılan saata baxdım. Saatın əqrəbləri 330-u (üç otuz) göstərirdi. Yatağımdan qalxıb mətbəxə keçdim. Axşamdan dəmlənmiş çiçək çayından içdim. Çay artıq soyumuşdu.***

Yenidən yatağıma qayıtmaq istədim, ancaq gündüzkü istilər evin daş divarlarını o qədər isitmişdi ki, otaqlar istidən sanki od tutub yanırdı. Otağıma keçmək fikrindən daşındım. Evimin astanasındakı üç mərtəbəli pilləkəndə oturmalı oldum.

Bir-birlərini itələyib irəliləyən dəqiqələr məni xəyalən bir gün əvvəl baş vermiş hadisələrə qaytarırdı.

Səhhətində narahatlıq olan dostlarımı ziyarət etdikdən sonra, görüşə bilmədiklərimə telefon açdım. Telefon danışıqlarımın içində ən çox məni qayğılandıran xalqımın böyük yazarı Qərib Mehdi ilə danışıqlarımız oldu. Məqsədim böyük yazıçı, iti qələm sahibi, ağsaqqal Qərib Mehdini Qurban bayramı münasibətilə təbrik etmək idi. Telefonun uzun sürən çağırışından sonra böyük yazarın sakit tərzdə səsi gəldi: Eşidirəm.

Mən arzularımı, niyyətimi, dualarımı böyük yazarımıza bəyan etdim. Bəyanatım məmnuniyyətlə qəbul olunduqdan sonra yazarımız yeni əsər üzərində işlədiyini bildirərək əlavə etdi ki, sənin bugünkü zəngin üzərində işlədiyim əsərimə şirinlik qatacaqdır.

Şirin xəyallar içərisində dolaşırkən bədənimdə bir yüngüllük hiss etdim. Böyük əziyyətlə saldığım bağ tərəfdən əsən meh qoynuma dolaraq ruhumu oxşayırdı. Mən əsən hər bir meh dalğasını saymağa başladım. Hər bir dalğa əyilərək qulağıma bir möcüzəli söz deyirdi. Növbə geniş əndamlı, incə belli 88-ci (səksən səkkizinci) dalğaya çatanda qarşımda amiranə bir səslə "Ey, adam, səninləyəm, oyan. Sənə 52 saylı boğça gətirmişəm. Aç boğçanı, içindəkilərin ləzzətini dad. Mən isə gedirəm 53-cü (əlli üç) boğçanın arxasınca". Həmin səs sanki qeybdən gəlirdi. Məni yuxudan ayıltdı.

***Bədənimin soyuduğunu hiss etdim. Daxilimi qurd kimi gəmirən narahatlıq keçmişdi. Dan sökülməsinə baxmayaraq, yenidən yatağım məni özünə çəkirdi.***